**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№360/5** **29 noyabr 2023-cü il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu arasında Anlaşma Memorandumunun imzalanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 6.6-cı “Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi” bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) arasında əldə edilmiş razılığa əsasən təcrübə mübadiləsi və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Auditorlar Palatası sədrinin müşaviri, Palatanın Şurası yanında Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitənin sədri F.Qarayev tərəfindən təqdim edilmiş Anlaşma Memorandumunun layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) arasında imzalanacaq Anlaşma Memorandumunun layihəsi bəyənilsin (əlavə olunur).

2. Anlaşma Memorandumunun 2023-cü ilin 1 dekabr tarixində Bakıda imzalanması məqsədəmüvafiq hesab edilsin.

3. Auditorlar Palatası sədrinin müşaviri, Palatanın Şurası yanında Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitənin sədri F.Qarayevə tapşırılsın ki, Anlaşma Memorandumunun mətninin Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu ilə razılaşdırılmasını və imzalanması ilə əlaqədar təşkilati işlərin həyata keçirilməsini təmin etsin.

4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, Anlaşma Memorandumu imzalandıqdan sonra üç həftə müddətində bu memorandumda nəzərdə tutulmuş müddəalardan irəli gələn məsələlərin həyata keçirilməsi ilə əlaqədar tədbirlər planını hazırlayıb təqdim etsin.

5. Bu qərarın və əməkdaşlıq sazişinin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novuzov**